***Həmid Abbas***
***Azərbaycan günəşi***

Başın uca, alovun al,
Atəşin var Azərbaycan.
Göy Xəzərə məğrur qartal
Baxışın var, Azərbaycan.

Güclü qolla, biləklərlə,
Çox vuruşdun pələnglərlə.
Hələ neçə nəhənglərlə,
Yarışın var, Azərbaycan.

Ürəyinin odu sönməz,
Zirvələrdən heç vaxt enməz,
Nə hikmətdir ağlagəlməz
Gərdişin var, Azərbaycan.

Qan ağladın sən neçə il,
Köçdü bülbül, saraldı gül.
Daha bəsdir, gözünü sil,
Gülüşün var, Azərbaycan.

Daş-torpağın, suyun varlı,
Yolun-izin şaxta-qarlı.
Fəqət nə qəm, daim nurlu
Günəşin var, Azərbaycan.

Bu günəşin adı Heydər,
O gur yanır axşam-səhər.
Qarabağa bir son zəfər,
Yürüşün var, Azərbaycan!

09.09.1997

***Abbas H. Azərbaycan günəşi // Tale ulduzu. – Bakı : Gənclik, 1998. – S. 27-28.***